# Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sisteminin fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sisteminin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

*1.1.Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.*

1.2. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sisteminin fəaliyyətinin təmin edilməsi, habelə sistem çərçivəsində müvafiq dövlət orqanları və digər informasiya sistemləri (resursları) arasında əlaqələndirmənin təşkil edilməsi üçün lazımi tədbirlər görsün.

2. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 6 fevral 2009-cu il***

***№ 134***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (10 fevral 2009-cu il, № 31) («LegalActs» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (28 fevral 2009-cu il, № 2 (140), maddə 92) («LegalActs» LLC).***

***2 noyabr 2009-cu il tarixli, 567 nömrəli Sərəncama əsasən dəyişikliklərlə («LegalActs» LLC).***

*© LegalActs LLC*